government in Azerbaijan, the impact on economic, social and cultural relations. The effects of national and communist ideologies on the socio-psychological and spiritual environment were explained and concluded.

***Rəyçi: t.ü.f.d. Allahverdiyeva G.***
***İctimai və təbiət elmləri kafedrasının 18 oktyabr 2022-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 26 oktyabr 2022-ci il***

**UOT:94.**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKÜSTANDA RUŞLAŞDIRMA SİYASƏTİNƏ QARŞI ZİYALILARIN "CƏDİDÇİLİK" HƏRƏKATI

***Əliyeva Təhminə Yasin qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı***
***tehmine.eliyeva@quba.adpu.edu.az***

**Xülasə:** *Cədidçilik İsmayıl bəy Qaspiranlının öndərliyi ilə inkişaf etmişdir. Bu hərəkat XIX əsrin sonu XX əsrin əvvvələrində Rusiya imperiyasının əsasən türk mənşəli müsəlman xalqları arasında təşəkkül tapan ictimai-siyasi və intelektual hərəkat idi. İsmayıl bəy hərəkata yeni üsulda təhsil verən məktəblər açaraq başladı, daha sonra Tərcüman qəzetini çıxartdı. Hərəkat liderləri 1905-ci ildə Rus istilasından sonra ortaya çıxan siyasi fəaliiyyətdə aktiv rol aldılar. Türküstanda cədidçilik hərəkatı ilə özünü göstərmiş, yeni metodla çalışan bölgədəki türk mətbuatıda da tövhəsini vermişdir. İsmayıl bəy Qaspiranlının, Türk xalqlarının "dildə fikirdə və işdə birlik" inteqrasiya məqsədi daşıyan fikri müsəlman türk biriklərinin milli süarını qazanmasında, Türk millətçiliyinin inkişafında və bu ölkədə yaşayan xalqların haqq axtariş mübarizəsində yerinə yetirmişdir. Məqalədə Çədidçilik hərəkatının necə və hansı şərtlərlə ortaya çıxdığı araşdırılmışdır. Cədidçilərin nəşr edikləri qəzet və jurnallar, məqsəd və məzunları, özünəməxsus xüsusiyyətləri və xarekterinə geniş yer ayrılmışdır. Cədidçilərin qarşısında duran Qədimçilərin anti təbliğat işləri, Çar rusiyasının cədidçilərin qarşısını almaq üçün yertidiyi təziqlərdən bəhs olunmuşdur.*

**Açar sözlər**: Çədidçilik, milli azadlıq hərəkatı, məktəb, ziyalı, qəzet, jurnal, Türküstan
**Key Words:** Chasidism, national liberation movement, school, newspaper, magazine, intelligent, Turkistan
**Ключевые слова:** Модернизм, национально-освободительное движение, школа, интеллигенция, газета, журнал, Туркестан

Cədidizim hərəkatı türk milli süurun inkişafı və türk xalalarının müstəqillik mübarizəsinə əhəmiyyətli fikri təsiri olmuş bir hərəkat olaraq xarekterizə edilə bilər. XIX əsrin sonu XX əsrin əvvvələrində Rusiya imperiyasının əsasən türk mənşəli müsəlman xalqları arasında təşəkkül tapan ictimai-siyasi və intelektual hərəkat idi. XIX əsrin 80-ci illərində Krım. Qazan və həmçinin Azərbaycanda 90-ci illərdə isə Orta Asiyada yayılmışdır. [1, s.19] Əvvəllər köhnə müsəlman təhsil sistemini dəyişdirmək və müsəlman üçün Avropa təhsilinin zəruriliyi, islamın və dini məktəblərin məhdud islahatı, islamın milli burjuazıyasının tələblərinə uyğunlaşdırılması xeyrinə çıxış edirdilər.

Türküstan milli hərəkatına təsir edən, yeni cəmiyyətin tələbatına cavab verən siyasi liderlər deyil, ziyalıllar oldu. Dəyişmə mübarizəsi davamlı uduzmaya uğrayan əsgəri sahədən

fikri sahəyə yürüdülmüşdü. Aydındır ki, bu dəyişmə ilk əvvəl ziyalıların özlərindən başlamışdır. Türk dünyasında yenilikçi hərəkat xatırlanarkən yada Volqa-İdil bölgəsi düşür [2, s. 38]. 1905-ci il Türk müsəlman xalqlarının qatıldığı Şurada Mustafa Çokay adlı bir ziyalı qazax türkü tərəfindən hazırlanan və Daşkənddə təşkil edilən Türküstan müsəlmanları qurultayında Türk bölgələrinin soylu ailələrindən gələn özbək, qazax, tatar, qırğız, türkmən və başqırd liderlər Türküstan müsəlman Şurası adı altında birləşmişdir. İçlərində İ.Qaspiranlı, Ə.M.Topçubaşov, Y.Akurça, F.Kərimi, A.Rəşidi, M.C.Bigi, A.Apanay kimi türk xalqlarının öndə gələn şəxsiyyətlərinin liderlik etdiyi Rusiya müsəlmanları qurultayı, müsəlman xalqları arasında birlik yatarmaq qurma istiqamətində əhəmiyyətli iş gördülər.

1905-ci il inqilabın yaratdığı azadlıq mühitindən faydalanan cədidşilər çıxardıqları rus və türkçə "Tərcuman" ("Переводчик") qəzeti yeniləşmə hərəkatının bayraqdarına çevrildi. İ.Qaspiranlının liderliyi ilə acılan məktəblərdə Rusiyanı hər tərəfdən gələn şagirdlər bu yeniləşmə düşüncəsini öz bölgələrinə daşımağa başladılar. Qaspiranlı "Tərcüman" qəzetində mənlik duyğusunun  yaradılmasına çalışmışdır.

Bununla da Türküstanda Cədidçilik (Refirmizm) hərəkatı İ.Qaspilanın 1884-cü ildə acdığı ilk cədit məktəbi ilə sürət qazanaraq hərəkətlənmişdir. 1901-ci ildə Münəvvər Qazançı Daşkənddə Üluli-cədit məkətbi açmağa müvəffəq oldu. Türküstan ziyalılarının əksəriyyətinin dəstəklədiyi Cəditçiliyi meydana gətirən islam-türk mövzularnın götürməsi nəticəsində siyasi istiqamətli, mədəni cəhətdən daha ağırlıq təşkil edən bir yenilik hərəkatı halını almışdır. Lakin 1902-ci ildə Buxarada tatar uşaqları üçün Cədit məktəbi acılsa da qısa zamandan sonra qədimçilər və rusiyanın təziqi səbəbilə bağlanmışdır. İ.Qaspiranlının təkidləri ilə 1908-ci ildə yenidən açılmışdı. Bu hal Qədimçilərlə Cədidçilər arasında mübarizəni daha da şiddətli hala salınmışdı. [4. s. 46]

Cəditçilərin qarşısında duran əsas qurplaşma Qədimçiləri idi: Qədimçilər din xadimləri, mollalar və bəzi təriqət sahiblərinin nümayəndələrindən ibarət idilər ki, onlar qətiyyətin dindən kənarda müasirləşmə və yeniliyi qəbul etmirdilər. Onlara görə heç bir yenilik dini təriqətə toxunmamalı idi. 15 noyabr 1913-cü il tarixdə Şaqi Əhmədovun daxil olduğu dini qruplaşma adından sənədlərin yeni metodla oxumağa qarşı çıxmşdır: Bizim müsəlman quruplaşmamız Məhəmmədin davamçılarıdır, elmlə razı deyil: Biz qurana qarşı çıxış edən elmlə razı deyilik..! Peyğəmbərin öyrətdiklərinə və  imperatorumuza qarşı çıxa bilmərik" [3, s.195]. Qruplaşma sərtliklə bəyan edir ki, təzə metodla nə öyrənəcək necə öyrənəcək və mollalar dini fənləri tədris etməli inamın vəzifəsini yerinə yetirməli deyil. Türk milli süurunun inkişafında çox əhəmiyyətli yeri olan Türk millətçiliyi düşüncəsi iki böyük qrup trəfindən tərif edilmişdir. Bunlarıdan biri Osmanlı ziyalıları içərisində digəri isə Osmanlı dövlətinə gələn ziyalılardır. 1908-ci il inqilabından bir neçə ay keçikdən sonra İstanbulda Akurça, Ayaz İshaki Halim Sabit kimi ziyalılar tərəfindən mühacir təşkilatları yaratmış, təsis edilən qəzet və jurnalların sayı sürətlə artmışdır. [1, s. 64]

Türküstanda cədidçilik həəkatı ilə özünü göstərmiş, yeni metodla çalışan bölgədəki türk mətbuatıda da tövhəsini vermişdir. 1905-ci ildə "Cədid" qəzeti Daşkənddə, Orta Asiyada nəşrə başlamışdır. Cədidçilər 1906-cı ildən "Tərəqqi" və "Xurşid" adlı qəzetlər nəşr etməyə başladılar. Cədidçiliyin halqavarı yaradılmasında ən təsirli yolu nəşr orqanlarından istifadə edilməsi idi. Bunun üçün də Çədidçilər jurnal və qəzet nəşrinə böyük əhəmiyyət verdilər. Daşkənddə çədidçilər "Şöhrət", "Asiya", "Sadeyə Türküstan" kimi qəzetləri çar hökümətinin təziqlərinə baxmayaraq qısa müddətdə olsa nəşr etdilər. Səmərqənddə isə "Behbudi" və yoldaşları "Səmərqənd" və "Ayna" jurnallarını nəşr etdilər. Fərqanədə "Səda-i Fərqanə", "Əl Bayrağ", "Yurt" kimi qəzetlər işıq üzü gördü. 1905-1907-ci illərdə Özbəkistanda 12 qəzet, 2

jurnal və bir çox kitab və boşuruya nəşr edildi. Mukimi, Fikrət və Zövqü kimi şairlər bu nəşrlərdə islam-türj birliyii və yeniləşmə fikrini işlədirdilər.

Qaspıranlının təməl yanaşmasını, "Dili-i ümumi" adını verdiyi bir dil birliyidir. Bu dövrdə bu birliyi təmin etməyə istiqamətlibir çox jurnalı nəşr olunmağa başlanıldı. İsmayıl Qaspiranlı və digər ziyalıların əslində istədikləri mədəni birlik idi. Danışılan dilin Rusiyada yaşayan türklər tərəfindən başa düşülməsi və ortaq bir əlifbanın reallaşdırılması bu ziyalıların davamçısı qaçınmış və bunu təhlükəli tapmışdır. Onun əsas qayğısı xüsusilə belə bir birliyin ictimai və mədəni infrastrukturunu hazırlaya bilməkdir.

Türk milli süurunun inkişafında çox əhəmiyyətli yeri olan türk millətçiliyi düçüncəsi iki böyük qrup tərəfindən tərif edilmişdir. bunlardan biri Ormanlı ziyalıları içərisində digər isə Rusiyadan Osmanlı dövlətinə gələn ziyalılarıdır. Rus çarının dövləti tərkibində müsəlmanları təziqi altında aldıqdan sonra Türküstan, Azərbaycan, Krım ziyalılarından ibarət bir qrup Türkiyəyə gəlmişdir. 1908-ci il inqilabından bir neçə ay keçdikdən sonra İstanbulda Y.Akçura, Ə.Ağaoğlu, Ə.İbrahimov, A.Halim Sabi kimi ziyalılar tərəfindən mühacir təşkilatları yaratmış, təsis edilən və jurnalların sayı sürətlə artmışdır. [1, s.64]

Cəddiçilik düçüncəsi ilk olaraq Qazaxıstan və şimalı Qırğızıstanda yayılmağa başladı. Qazax şagirdləri məzun olmağa başladığı andan Cədidçi aydın sinfi meydana gəlməyə başladı. Qazax vilayətinin çətinləşən iqtisadi şərtləri əsasında ənənəvi təhsil metodları ilə Rus istismarına və assimlasiyasına qarşı etiraz etmək qeyri mümkün idi.Bu səbəblə bir an əvvəl təhsil sahəsində islahatlar edilməli idi. Bu cür ziyalılar XX əsrin əvvəllərində təhsil və mətbuat həyatında Cədid düçüncəsinin nümayəndəsi oldular. Bunlar arasında T.Comartbayev, M.Cumabayev, İ.Arabayev, M.Maldıyev, M.Orazayev, B.Serkabayev, B.Maylin, M.Şeralin kimi ziyalıllar vardır.

Cədididizm əsas məqsədi Türküstan xalqını yeni zamana görə, yenidən meydana gətirmək idi. Zamanla siyasi sahəni əhatə edən cədididzim düşüncələri və milli işığın mədəni işləri, cəmiyyətin əsasında Rusiya müstəmləkəsinə qarşı gücü ortaya çıxartdı. Cədidçilərin ən əhəmiyyətli xüsusiyyətləri, cəmiyyət həyatına soxmağa çalışdıqları təkamüllü, islahatçı prinsiplər sistemi idi. 1905-ci ildən sonra Rusiyada siyasi çaxnaşmalar başladığı zaman Cədidizm daha da siyasiləşməyə başladı. Müasirlər və ortaçılar olaraq iki yerə ayrılırdılar. Buna baxmayaraq ikisi də cəmiyyətdə islahatlar olmasını istəyirdilər. Görülən işlərin nəticəsində Türkcülük islamçılıq təməlində cədidizm Türküstan cəmiyyətinin önündə gələn qisminin bilik və milli mübarizə süurunu oyandırmağı bacarmışdır.

Yeni sistem oxuma sektorunda bütün digər dərslərin ərəbcə yerinə ana dilində qoyulmuşdur. İ. Qasiranlının inkişaf etdirdiyi bu sistem, bütün Türküstan tərəfindən mənimsənərək 1905-1906-cı illərdə Nijni-Novqorodda Rusiya müsəlmanları qurultayında son halını aldı. Usil-i cədit məktəbləri və mədrəsələrinə təhsil proqramı hazırlandı.

Türküstanda açılan Cədid məktəbləri, köhnə üsuldakı məktəblərə görə daha az rəqəmlə fərqlənirdi. Ancaq rus-yerli məktəblərinə görə şagird və məktəb sayı daha yüksək idi. Ümumi mənada cədidci milli ziyalıları qiymətləndirəcək olsaq: Türküstan cədidci ziyalıları, xalqa dərin bir əlaqə quraraq, onları müstəmləkəçi və təziqçi yerli və rus hakim dairələrinə qarşı qorumağa çalışmışdılar. Milli ziyalıların bu yeni fikirlərlə meydana gəlməsi (Türkçülük, İslamçılıq, Cədidçilik) şəkillənməsi və fəalliyyətləri əsla asan olmadı. XX əsrlə birlikdə özünü siyasi mühitdə hiss etdirən bu yenilikçi ətraf islamçılıq və türkçülük fikirlərindən təsirlənən cədid hərəkatı çərçivəsində Türküstanda açılan məktəb və mədrəsələrdə təhsil alan gənclərdən meydana gəldi. Bu səbəblə Türküstanda Rusiyada yaşayan müsəlman türk xalqları digər müsəlmanların yaşadığı yerlərdə olduğu kimi, milli ziyalıların təhsilli qismi müsəlaman dinini inkişaf etdirərək qorumağa çalışırdı. Bu hərəkatlara din adamları da

(mollalar, işanlar) qatıldılar. Bunlar islamçılıq fikri ilə islamı qoruyaraq, yerli xalqı bu güclü duyğu ilə bir yerdə tutmaq məqsədi ilə müsəlmanlığı təbliğ edirdilər. Bu islamçı və türkçü ətraf xalqa qərbin fəlsəfəsini, texnologiyasını, yeniliklərini süzgəcdən keçirərək əks etdirirdi. Xalqı müsəlman və türk birliyinə çağıraraq Rus təziqinə hər vaxt razı oldular. Çar rəhbərliyi Türküstandakı mədrəsə məktəbləri islami cücərdilən düşmən kimi müəssir və müəllimləri isə təhlükəli sayıb, işlərini izləyib cəzalandıraraq təzyiq altında tutmağa çalışırdılar. Nə var ki, rəhbərliyin təzyiqlərindən Rus Çarlığının 1905-ci il qiyamı ziyalıların fəaliyyətini artırdı və inkişafında bir dönüş nöqtəsini təşkil etdi. Qaspiranlının, Türk xalqlarının "dildə fikirdə və işdə birlik" inteqrasiya məqsədi daşıyan fikri Müsəlman türk biriklərinin milli süarını qazanmasında, Türk millətçiliyinin inkişafında və bu ölkədə yaşayan xalqların haqq axtariş mübarizəsində yerinə yetirmişdir.

Müəyyən proqramı, rəhbərlik mərkəzi və nizamnaməsi olayana cədidçilər Türküstan və Buxarada leqal nəşrlər nəşrlər ətrafında, yeni üsullu məktəblərdə, xeyriyyə cəmiyyətlərində və s. toplanmışdılar. Bəzən cədidçilrə demokratik ziyalılarda qoşulurdu, lakin onların siyasi cəhətdən Cədidizmlə yaxınlığı yox idi. Orta Asiyada Cədidizmin inkişafına 1908-ci ildə Türkiyədə baş vermiş gənc türklər inqilabı güclü təsir göstərmişdir. 1907-ci ilin Fevral inqilabından sonra cədidçilər millətçi partiyalarını yaratdılar.

XX əsrdə birlikdə özünü siyasi mühitdə hiss etdirən bu yenilikçi ətraf islmaçılıq və türkçilik fikirlərindən təsirlənən cədid hərəkatı çərçivəsində Türküstanda açılan məktəb və mədrəsələrdə təhsil alan gənclərdən meydana gəldi. Bu səbəblə Türküstanda, Rusiyada yaşayan müsəlman türk xalqları digər müsəlmanların yaşadığı yerlərdə olduğu kimi, milli ziyalıların təhsilli qismi müsəlman dinin inkişaf etdirərək qorumağa çalışırdı.

### *Ədəbiyyat*


1. Gilpınar C. XVIII-XIX əsrlərdə İslam dünyasındakı İslah haraketleri. – Ankara: TDA, 1999.
2. Özdemir E. 20-cı yüzyılın başlarında Kazakıstanda fikir hareketleri. – Ankara: QU, 2007.
3. Toğan Zeki Velidi: Hatıralar-Türkistan və Diger Müslüman Doğu Türklerinin Milli Varlıq ve Kültür Mücadileleri. – İstanbul: 1969.
4. Saray Mehmet: Qaspiranlı İsmayıl beyden Atatürke Türk dünyasında dil ve kültür birliyi. – İstanbul: 1993.


## THE "JADIDISM" MOVEMENT OF INTELLECTUALS AGAINST THE POLİCY OF RUSSİFİCATİON OF TURKESTAN AT THE BEGINNING OF THE XX CENTURY

***Aliyeva Tahmina Yasin***

***Summary***

The dedication was developed under the leadership of Ismail Bay Qaspiranli. This movement was a social, political and intellectual movement, which was formed in the late 19th and early 20th centuries among the Muslim peoples of the Russian Empire, mostly of Turkish origin. Ismail Bey started the movement by opening new schools, and then published the Translator newspaper. Movement leaders took an active role in the political activity that emerged after the Russian invasion in 1905. He has made a name for himself in the Turkic movement in Turkey and has made a contribution to the Turkish press in the region. Ismail Bay Qaspiranli's idea that the Turkic peoples' unity of thought and action in the language was integrated into the achievement of the national motto of Muslim Turkic associations, the development of Turkish nationalism and the struggle for the right of the peoples living in this

country. The article examines how and under what circumstances the Mediation movement has emerged. The newspapers and magazines, the goals and alumni, their specifics and charisma are widely covered by the publishers. The antiquities of the Ancients, standing in front of the Jihadists, spoke of the pressures put forward by Tsarist Russia to prevent them.

## «ОБНОВЛЕНЧЕСКОЕ» ДВИЖЕНИЕ ИНТЕЛЛИГЕНЦИИ ПРОТИВ ПОЛИТИКИ РУССИНИЗАЦИИ В ТУРЦИИ В НАЧАЛЕ XX ВЕКА

***Алиева Тахмина Ясин кызы***

***Резюме***

Модернизм развивался под руководством Исмаил бека Гаспиранлы. Это движение представляло собой общественно-политическое и интеллектуальное течение, сформировавшееся среди мусульманских народов тюркского происхождения в Российской империи в конце 19 - начале 20 веков. Исмаил-бей начал движение, открыв школы, дающие образование по-новому, а позже издал газету «Тарджуман». Лидеры движения принимали активное участие в политической деятельности, возникшей после российского вторжения в 1905 году. Он проявил себя с модернистским движением в Туркестане и внес свой вклад в турецкую прессу в регионе, которая работает по новому методу. Идея Исмаил бека Гаспиранлы о «единстве языка, мысли и труда» турецкого народа с целью интеграции нашла свое воплощение в завоевании национального флага тюркско-мусульманских отрядов, в развитии турецкого национализма и в борьбе за справедливость. народов, проживающих в этой стране. В статье рассматривается, как и при каких условиях возникло движение хадидизм. Много места уделено газетам и журналам, издаваемым модернистами, их целям и выпускникам, их уникальным характеристикам и характеру. Обсуждались антипропагандистская работа древних перед модернистами, давление, оказываемое царской Россией для предотвращения модернистов.

***Rəyçi: Mürvət Əliyev ADPU-Quba filalı Tarix, Pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi***

***ADPU Quba filialı Tarix, Pedaqogika və sosial elmlər kafedrasının 24 noyabr 2022 tarixli iclasın 3 saylı protokolu***

***Daxil olma tarixi 15 dekabr 2022-ci il***